**(Daxili normativ sənədlər səhifəsinə)**

# QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN QAZILAR ŞURASI HAQQINDA ƏSASNAMƏ

## 1.Ümumi müddəalar

1.1 . Bu Əsasnamə Qafqaz Müsəlmanları İdarəsinin (bundan sonra-QMİ) Qazılar Şurasının (bundan sonra-Şura) yaradılması, səlahiyyəti və fəaliyyəti haqqında məsələləri tənzimləyir.

1.2. Əsasnamə QMİ Nizamnaməsinin 5.14-cü maddəsinə uyğun olaraq QMİ Sədri tərəfindən təsdiq edilir. Əsasnaməyə əlavə və dəyişikliklər İdarə sədrinin əmri ilə həyata keçirilir.

1.3. Şura öz fəaliyyətində Azərbaycan Respublikası qanunvericiliyini, İdarənin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktları, İdarənin Nizamnaməsini və bu Əsasnaməni rəhbər tutur.

## 2.Şuranın yaradılması və tərkibinin formalaşdırılması

2.1. Şura Qafqaz Müsəlmanlarının qurultayında, yüksək dini təhsilli və nüfuzlu din xadimləri sırasından müddətsiz olaraq yaradılır.

2.2. Şura üzvlərinin sayı və fərdi tərkibi İdarə Sədrinin təklifi ilə, bütün bölgələrin təmsil olunması gözlənilməklə Qurultayda müəyyən edilir. Şura üzvləri İdarə sədrinin müəyyən etdiyi bölgələrə təhkim olunurlar.

2.3. Şuranın üzvü iclasda iştirak edən Şura üzvlərinin azı üçdə ikisinin səs çoxluğu ilə Şura üzvlüyündən çıxarıla bilər.

2.4. Müəyyən səbəblərə görə öz vəzifəsini icra edə bilməyən bölgə qazısının səlahiyyəti İdarənin Sədri tərəfindən qurultaya qədər müvəqqəti olaraq din xadimlərindən birinə həvalə edilə bilər.

## 3. Şuranın fəaliyyət qaydası

3.1. Qazılar Şurası ildə iki dəfədən az olmayaraq öz növbəti iclaslarını keçirirlər. Növbəti iclaslar QMİ Sədri tərəfindən çağırılır.

3.2. Şuranın iclasında üzvlərin ən azı yarısı iştirak etdikdə o, səlahiyyətli sayılır.

3.3. Şuranın iclaslarının keçiriıməsinə azı 7 gün qalmış iclasın yeri, vaxtı, gündəliyi və gündəliklə tanış olmaq qaydası barədə Şura üzvlərinə məlumat verilir.

3.4. Şura iclaslarına QMİ Sədri sədrlik edir. QMİ Sədri hər hansı səbəbdən iclasa sədrlik edə bilmədikdə bu vəzifə onun təklifi ilə Şura üzvlərinin birinə həvalə edilə bilər.

3.5. QMİ-nin nizamnaməsində və bu əsasnamədə göstərilən hallar istisna olmaqla iclasda qərarlar üzvlərin adi səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda iclasa sədrlik edənin səsi həlledici sayılır. Səsvermənin qaydası iclas tərəfindən müəyyən edilir.

3.6. QMİ Sədrinin və ya Şura üzvlərinin üçdə birinin təşəbbüsü ilə Şuranın növbədənkənar iclası çağırıla bilər. Şuranın növbədənkənar iclaslarının keçiriıməsinə azı 3 gün qalmış iclasın yeri, vaxtı, gündəliyi və gündəliklə tanış olmaq qaydası barədə Şura üzvlərinə məlumat verilir.

3.7. Şuranın qərarları QMİ sədri tərəfindən imzalanır və dərhal qüvvəyə minir.

**4. Şuranın səlahiyyətləri**

4. Şuranın səlahiyyətlərinə aşağıdakılar aiddir:

4.1.Qurultaylararası dövrdə QMİ-nin yeni redaksiyada nizamnaməsini qəbul etmək və ya nizamnaməyə dəyişikliklər və əlavələr etmək;(Bu barədə qərar Şuranın üzvlərinin ən azı üçdə iki hissəsi iştirak etdikdə, üzvlərin üçdə iki səs çoxluğu ilə qəbul olunur).

4.2. Dini bayram, mərasim və digər vacib dini məsələlərlə əlaqədar fətvalar və tövsiyələr vermək;

4.3. Mükafatlandırma barədə məsələlərə baxmaq və bu barədə QMİ Sədrinə təkliflər vermək;

4.4. İldə bir dəfədən az olmayaraq QMİ-nin ümumi fəaliyyətini müzakirə etmək;

4.5. QMİ-nin tabeliyində olan istənilən dini qurumun, vəzifəli şəxsin və Şura üzvünün hesabatını dinləmək;

4.6. QMİ Sədrinin və qurultayın müstəsna səlahiyyətlərinə aid edilməyən istənilən məsələ ilə bağlı QMİ Sədrinin təklifi və ya öz təşəbbüsü ilə qərar qəbul etmək;

4.7. QMİ-nin nizamnaməsində bu əsasnamədə göstərilən digər səlahiyyətləri həyata keçirmək.

**5. Şura üzvlərinin səlahiyyətləri**

5. Şura üzvlərinin aşağıdakı səlahiyyətləri vardır:

5.1. Təhkim olunduğu bölgədə dindarların şəri məsələlərini həll etmək;

5.2.Cavabdeh olduğu ərazidə fəaliyyət göstərən dini icmaların, məscidlərin, ziyarətgahların (pirlərin) və dini təlim ocaqlarının fəaliyyətinə öz səlahiyyətləri çərçivəsində nəzarət etmək və görülən işlər haqqında QMİ-yə vaxtaşırı məlumat vermək;

5.3. Təmsil etdiyi bölgədə Şuranın vəzifə və funksiyalarını öz səlahiyyətləri çərçivəsində həyata keçirmək;

5.4. Məzhəbindən aşlı olmayaraq təmsil etdiyi bölgənin islam dini icmalarının və QMİ-nin səlahiyyətli bölgə nümayəndələrinin fəaliyyətini əlaqələndirmək;

5.5. QMİ Sədrinin səlahiyyəti çərçivəsində verdiyi tapşırıqların və Şuranın qəbul etdiyi qərarların bölgə islam icmaları tərəfindən vaxtında və keyfiyyətlə yerinə yetirilməsin təmin etmək;

5.6. Təmsil etdiyi bölgənin islam dini icmalarının "Dini etiqad azadlığı haqqında" Qanunda nəzərdə tutulmuş hesabatlarının müəyyən edilmiş qaydada və vaxtında QMİ-yə təqdim edilməsinə nəzarət etmək;

5.7. Bölgədəki müsəlman din xadimlərinin fəaliyyətlərinin mövcud qanunvericiliyə, QMİ-nin daxili normativ-hüquqi sənədlərinə və şəri normalara uyğunluğuna nəzarəti təmin etmək;

5.8. Öz fəaliyyəti barədə Şura tərəfindən müəyyən edilmiş qaydada QMİ-yə və Şuraya hesabat vermək;

5.9. Fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan sənəd, material və arayışları bölgədəki islam dini icmalarından tələb etmək;

5.10. Bölgədə fəaliyyət göstərən din xadimlərinə öz səlahiyyətləri çərçivəsində məcburi tapşırıqlar vermək;

5.11. Bölgədəki islam dini icmalarının fəaliyyətinin təkmilləşdirilməsi barədə QMİ-yə və Şuraya təkliflər vermək;

5.12. Bölgə islam dini icmalarına din xadimlərinin vəzifəyə təyin edilməsi və ya vəzifədən çıxarılması məqsədi ilə QMİ-yə təkliflər vermək;

5.13. Yerli din xadimlərinin həvəsləndirilməsi və ya intizam tənbehinə cəlb edilməsi barədə QMİ-yə vəsatət vermək;

5.14. QMİ-nin müəyyən etdiyi qaydada bölgə islam din xadimlərindən hesabatlar tələb etmək.

5.15. QMİ-nin razılığı olmadan digər bölgələrdən gəlmiş din xadimlərinin islam dini mərasim və ayinlərinə rəhbərlik etmələrinə, dini təbliğat aparmalarına və əcnəbilərin bölgədə dini təbliğat aparmalarına yol verməmək;

5.16. QMİ-nin Təşkilat şöbəsinin icazəsi olmadan əsas iş yerinin yerləşdiyi bölgəni tərk etməmək;

5.17. QMİ-nin mətbuat xidmətinin razılığı ilə kütləvi informasiya vasitələrində çıxış etmək və onlara məlumatlar vermək;

5.18. QMİ-nin Nizamnaməsindən habelə bölgədəki islam dini qurumlarının QMİ-yə təşkilati tabeçiliyindən irəli gələn digər səlahiyyətləri həyata keçirmək.

**6. Yekun müddəalar**

6.1. Şura üzvlərinə vəzifələrinin icrasına görə mükafat, (yardım, haqq və s.) ödənilə bilər. Mükafatın (yardımın, haqqın və s.) verilməsi qaydası QMİ Sədri tərəfindən müəyyən edilir.

6.2. QMİ Sədri tərəfindən Şura üzvlərinə onun səlahiyyətini təsdiq edən vəsiqə verilir.

6.3. Şura üzvləri öz üzərinə düşən vəzifələrin düzgün icrasına görə məsuliyyət daşıyır.

## QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN BÖLGƏLƏRDƏ SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏLƏRİ HAQQINDA ƏSASNAMƏ

**1.Ümumi müddəalar**

1.1 . Bu Əsasnamə Qafqaz Müsəlmanları İdarəsinin bölgələrdə səlahiyyətli nümayəndələrinin (bundan sonra-*səlahiyyətli nümayəndə*) təyin olunması və tutduğu vəzifədən azad edilməsi və fəaliyyəti qaydasını tənzimləyir, onların hüquq və vəzifələrini müəyyən edir.

1.2. Əsasnamə İdarənin sədri tərəfindən təsdiq edilir. Əsasnaməyə əlavə və dəyişikliklər İdarə sədrinin əmri ilə edilir.

1.3. Səlahiyyətli nümayəndələr QMİ Sədrinə tabedirlər. Onlar öz fəaliyyətləri zamanı İdarə Sədrinin verdiyi tapşırıqları yerinə yetirməyə borcludurlar.

1.4. Səlahiyyətli nümayəndələrin fəaliyyəti bölgə qazıları və QMİ-nin Təşkilat şöbəsi tərəfindən əlaqələndirilir. QMİ-nin struktur bölmələri səlahiyyətli nümayəndələrə öz səlahiyyətləri çərçivəsində tapşırıqlar verə bilərlər.

1.5. Səlahiyyətli nümayəndələr QMİ Sədrinin müəyyən etdiyi bölgələrə təhkim olunurlar.

1.6. Səlahiyyətli nümayəndəyə vəzifələrinin icrasına görə haqq ödənilə bilər. Ödəmənin qaydası QMİ Sədri tərəfindən müəyyən edilir.

1.7. QMİ Sədri tərəfindən səlahiyyətli nümayəndəyə onun səlahiyyətini təsdiq edən vəsiqə verilir.

1.8. Səlahiyyətli nümayəndələr öz fəaliyyətində Azərbaycan Respublikası qanunvericiliyini, İdarənin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktları, İdarənin Nizamnaməsini, QMİ Sədrinin əmrlərini, Qazılar Şurasının Qərarlarını və bu Əsasnaməni rəhbər tutur.

## 2. Səlahiyyətli nümayəndələrin əsas vəzifələri

2.Səlahiyyətli nümayəndələrin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

2.1.Təmsil etdiyi bölgədə QMİ-nin vəzifə və funksiyalarını öz səlahiyyətləri çərçivəsində həyata keçirmək;

2.2. Təmsil etdiyi bölgənin mənsub olduqları məzhəbdən aşlı olmayaraq islam dini icmalarının fəaliyyətini əlaqələndirmək;

2.3. QMİ-nin və bölgə qazısının səlahiyyəti çərçivəsində verdiyi tapşırıqların bölgə islam icmaları tərəfindən vaxtında və keyfiyyətlə yerinə yetirilməsin təmin etmək;

2.4. Təmsil etdiyi bölgənin islam dini icmalarının “Dini etiqad azadlığı haqqında” Qanunda nəzərdə tutulmuş hesabatlarının müəyyən edilmiş qaydada və vaxtında QMİ-yə təqdim edilməsini təmin etmək;

2.5. Bölgədəki müsəlman din xadimlərinin fəaliyyətlərinin mövcud qanunvericiliyə, QMİ-nin daxili normativ-hüquqi sənədlərinə və şəri normalara uyğunluğuna nəzarəti təmin etmək;

2.6. QMİ-nin tapşırığı ilə bölgə müsəlmanlarını dövlət orqanları və ictimai təşkilatlarla münasibətlərdə təmsil etmək;

2.7. Öz fəaliyyəti barədə QMİ tərəfindən müəyyən edilmiş qaydada QMİ-yə və bölgə qazısına hesabat vermək;

2.8. QMİ-nin daxili sənədlərində və bölgə qazısının öz səlahiyyətləri çərçivəsində verdiyi göstərişlərdə nəzərdə tutulan digər vəzifələri yerinə yetirmək.

2.9 QMİ-nin razılığı olmadan digər bölgələrdən gəlmiş din xadimlərinin islam dini mərasim və ayinlərinə rəhbərlik etmələrinə, dini təbliğat aparmalarına və əcnəbilərin bölgədə dini təbliğat aparmalarına yol verməmək;

2.10. QMİ-nin Təşkilat şöbəsinin icazəsi olmadan əsas iş yerinin yerləşdiyi bölgəni tərk etməmək;

2.11. QMİ-nin Nizamnaməsindən habelə bölgədəki islam dini qurumlarının QMİ-yə təşkilati tabeçiliyindən irəli gələn digər vəzifələri həyata keçirmək.

**3. Səlahiyyətli nümayəndənin hüquqları**

3. Səlahiyyətli nümayəndələrin əsas hüquqları aşağıdakılardan ibarətdir:

3.1. Öz səlahiyyətləri çərçivəsində bölgədəki islam dini icmalarının din xadimlərinin (axundların, imamların və s.) fəaliyyətinə nəzarət etmək;

3.2. Fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan sənəd, material və arayışları islam dini icmalarından tələb etmək;

3.3. Bölgədə fəaliyyət göstərən din xadimlərinə öz səlahiyyətləri çərçivəsində tapşırıqlar vermək;

3.4. Yerli islam dini icmalarının fəaliyyətinin təkmilləşdirilməsi barədə QMİ-yə bölgə qazısına təkliflər vermək;

3.5.Yerli islam dini icmalarına din xadimlərinin təyin edilməsi məqsədi ilə QMİ-yə və bölgə qazısına təkliflər vermək;

3.6. Yerli din xadimlərinin həvəsləndirilməsi və ya intizam tənbehinə cəlb edilməsi barədə QMİ-yə vəsatət vermək;

3.7. QMİ-nin müəyyən etdiyi qaydada bölgə islam din xadimlərindən hesabatlar tələb etmək.

3.8. QMİ-nin mətbuat xidmətinin razılığı ilə kütləvi informasiya vasitələrində çıxış etmək və onlara məlumatlar vermək;

**4. Səlahiyyətli nümayəndələrin vəzifəyə təyin edilməsi və vəzifədən azad edilməsi**

4. 1. Səlahiyyətli nümayəndə QMİ sədri tərəfindən vəzifəyə təyin edilir və vəzifəsindən azad edilir. Bölgə qazısı səlahiyyətli nümayəndə təyin etmək və vəzifədən azad etmək haqqında QMİ Sədrinə təklif verə bilər.

4.2. Hər hansı bir səbəbə görə öz vəzifəsini icra edə bilməyən səlahiyyətli nümayəndənin səlahiyyətləri QMİ Sədri tərəfindən həmin ərazidə fəaliyyət göstərən Qazılar Şurasının üzvünə, digər bölgənin səlahiyyətli nümayəndəsinə və ya axunda (imama) həvalə edilə bilər.

4.3. Səlahiyyətli nümayəndələr qanunvericilikdə nəzərdə tutulan əsaslarla yanaşı, müsəlman din xadiminin yüksək adına layiq dini-əxlaqi normaların pozulmasına görə də tutduqları vəzifələrindən azad edilə bilərlər.

4.4. Səlahiyyətli nümayəndə ilə QMDİ arasında müvafiq müqavilə bağlanır.

**5. Səlahiyyətli nümayəndənin məsuliyyəti**

Səlahiyyətli nümayəndə öz üzərinə düşən vəzifələrin düzgün icrasına görə məsuliyyət daşıyır.